7TH GLOBAL FORUM BAKU 2016 UNITED NATIONS ALLIANCE OF CIVILIZATIONS

## BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumu

# Qədimliklə müasirliyin qovuşduğu məkan

Bakıda keçirilən "İnklüziv cəmiyyətlərdə birgə yaşama: çağırış və məqsəd" devizi altında BMT-nin Sivilizasiyalar Alyansının (SA) VII Qlobal Forumu əlamətdar hadisələrlə yadda qaldı. Hələ uzun illər bu forumun əhəmiyyəti və əldə edilən nəticələr barədə danışılacaq. Forumun rəsmi açılışında Prezident İlham Əliyev, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir, bir neçə ölkənin dövlət və hökumət başçısı, ümumilikdə 147 ölkədən 1500-dən çox qonaq, o cümlədən siyasi liderlər, beynəlxalq və regional təşkilatlar, özəl sektor, vətəndaş cəmiyyəti, elmi dairələr, gənclər, incəsənət, habelə kütləvi informasiya vasitələrinin, donor agentliklərinin və fondların nümayəndələrnin iştirakı bu tədbirin çox mühüm əhəmiyyət daşıdığını sübut etdi.

### Şərqlə Qərb arasında multikultural mərkəz

Tədbirdə ali qonaqların iştirakı bir daha Bakı şəhərinin Avropa və dünya miqyaslı siyasi, iqtisadi və humanitar tədbirlərə yüksək səviyyədə evsahibliyi etməsini, Şərqlə Qərb arasında multikultural mərkəz rolunu oynadığını göstərdi. Azərbaycanın yüksək təşəbbüskarlığı ilə təşkil edilən çoxsaylı mötəbər beynəlxalq tədbirlər Bakını artıq regionun "diplomatik paytaxtı"na çevirib. Üç gün davam edən forum beynəlxalq televiziyalar və internet vasitəsilə 6 dildə canlı yayımlandı, Azərbaycanın tanıdılması baxımından çox böyük əhəmiyyət kəsb etdi.

Sivilizasiyalar Alyansının (SA) VII Qlobal Forumu çərçivəsində keçirilən iki plenar iclasda "Zorakı ekstremizmin qarşısının alınması" və "Sosial inteqrasiya üzrə qabaqcıl metodlar" mövzularına xüsusi diqqət yetirildi. Forum hər kəsin hüquqlarına, o cümlədən dini etiqad azadlığına, bərabər imkanlar və ədalətli idarəçiliyə, etnik-mədəni müxtəlifliyə həqiqi hörmət göstərilməsi və hərtərəfli dözümlülük prinsipinə əsaslanan cəmiyyətlərin qurulması üzrə fəaliyyəti müzakirə etmək üçün münasib platforma oldu. Bu mövzular Sivilizasiyalar Alyansının fəaliyyətləri ilə aşkar rezonansa malikdir. Yəqin ki, bu rezonans hazırkı və gələcək tərəfdaşların iştirakı ilə keçirilən bölmə iclaslarında, eləcə də tanışlıq və əməkdaşlıq toplantılarında daha dərindən tədqiq olunacaq.

Tədbir çərçivəsində BMT Sivilizasiyalar Alyansının Gənclər Forumu, multikultural cəmiyyətin formalaşdırılmasında Azərbaycanın rolu, birgəyaşayışın öyrənilməsi: təhlükə və münaqişə problemi, təhsil vasitəsi ilə zorakı ekstremizmin qarşısının alınmasına dair məqsədlər: inkişaf, müxtəliflik və dialoq naminə təhsil, Bakı prosesi: qlobal mədəniyyətlərarası dialoq üçün yeni çağırışların cavablandırılması, media peşəkarlığı: zorakı ekstremizmin təbliğatına qarşı müqavimətin təşkili üçün vasitələr, ekstremizmin qarşısını almaq üçün çoxmədəniyyətli (multikultural) cəmiyyətin formalaşdırılması perspektivlərinin təşviqi və digər mövzularda da seminarlar keçirildi.

BMT Sivilizasiyalar Alyansının VII Qlobal Forumu çərçivəsində 110 ölkədən təxminən 150 nəfərin iştirakı ilə Gənclər Forumunun keçirilməsi mühüm əhəmiyyət kəsb etdi. Gənclər Forumu çərçivəsində keçirilən biznes simpozium və əməkdaşlıq toplantılarında əsasən Minilliyin İnkişaf Məqsədlərindən olan dözümlülük və zorakılığın qarşısının alınması məsələləri müzakirə predmeti oldu. Müzakirələrdə həmçinin gender bərabərliyi, münaqişələrin həllində gənclərin rolu barədə fikir mübadiləsi aparıldı. Diqqətə çatdırıldı ki, inklüziv cəmiyyət gənclərin iştirakı olmadan qurula bilməz. Buna görə də gənclərin daha geniş səviyyədə iştirakına nail olmalıyıq. Azərbaycanda gənclərin təşəbbüslərinin və fəaliyyətlərinin təmini üçün geniş imkanlar yaradıldığı xüsusi qeyd edildi.

### Azərbaycan sivilizasiyalararası dialoq, mədəni-intellektual konsolidasiya və əməkdaşlıq mərkəzinə çevrilib

VII Qlobal Forumda diqqəti cəlb edən ən mühüm məqam Prezident İlham Əliyevin forumun rəsmi açılış mərasimindəki çıxışı və səsləndirdiyi fikirlərdir. "Azərbaycan əsrlər boyu dinlər, mədəniyyətlər və sivilizasiyaların bir araya gəldiyi məkan olmuşdur. Biz Şərq ilə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük. Əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin nümayəndələri Azərbaycanda sülh şəraitində və ləyaqətlə yaşayıblar. Dini dözümlülük və multikulturalizm burada hər zaman mövcud olmuşdur. Multikulturalizm sözü mövcud olmadığı bir zamanda belə, həmin ideyalar daim yaşayıb. Bunun nəticəsidir ki, bu gün Azərbaycan çoxmillətli və çoxkonfessiyalı ölkədir. Burada bütün dinlərin və etnik qrupların nümayəndələri sülh və əmin-amanlıq şəraitində yaşayırlar.

Bu, bizim ən böyük sərvətimizdir və biz tariximizlə fəxr edirik. Biz müxtəlif mədəniyyətləri özündə əks etdirən tarixi abidələrimizlə fəxr edirik"- deyən Prezident İlham Əliyev mədəniyyətlər, sivilizasiyalar və konfessiyalar arasında zəngin əməkdaşlıq ənənələrinə malik Azərbaycanın bu kimi tədbirlərin keçirilməsi üçün ideal məkan olduğunu bir daha xatırlatdı. Mühüm beynəlxalq tədbirlərin Azərbaycan paytaxtında keçirilməsi dövlətimizin beynəlxalq aləmdə nüfuzunu daha da artırır. Azərbaycan müxtəlif mədəniyyətlərin, qədimliklə müasirliyin qovuşduğu məkan olaraq bu məqsədlərə yönəlmiş mühüm təşəbbüslərlə çıxış edir.

BMT-nin Sivilizasiyalar Alyansının (SA) VII Qlobal Forumunun Bakıda keçirilməsi, ilk növbədə, respublikamızın sivilizasiyalararası dialoq prosesində fəal mövqe tutduğunu, mədəniyyətlər arasında körpü rolunu oynadığını göstərir. Bunun əsas səbəblərindən biri xalqımızın tolerantlıq düşüncəsinin yüksək səviyyəsidir. Xalqlararası və mədəniyyətlərarası dialoqu müasir qloballaşma dövründə daha da inkişaf etdirmək, ona dəstək vermək, bütün insanların gələcəyi naminə mədəniyyətlərin və dinlərin qarşılıqlı dialoquna nail olmaq dövlət siyasətinin mühüm tərkib hissəsi olaraq qalır. Dövlət başçısı İlham Əliyevin tolerantlıq və milli münasibətlər probleminə dair baxışları onun siyasi portretinin əsas cizgilərini təcəssüm etdirir. 13 il müddətində bununla bağlı irəli sürdüyü prinsiplər, müəyyənləşdirdiyi strateji xətt, atdığı konkret addımlar onun Azərbaycanı həm də sivilizasiyalararası dialoq, mədəni-intellektual konsolidasiya və əməkdaşlıq mərkəzinə çevirmək məqsədi daşıyır.

Bu da öz müsbət nəticəsini verir. Azərbaycanın beynəlxalq nüfuzu gündəngünə yüksəlir, dünya ictimaiyyəti respublikamızda həyata keçirilən islahatlar kursunun mahiyyəti ilə bağlı dolğun, hərtərəfli, obyektiv informasiya almaq imkanı qazanır. Bütün bunlar həm də bir sıra iqtisadi, siyasi və humanitar beynəlxalq tədbirlərin keçirilməsi məkanı kimi məhz Bakı şəhərinə üstünlük verilməsi ilə nəticələnir. Azərbaycan sülh və əməkdaşlıq paytaxtı kimi tanınır. Belə bir müsbət imicin formalaşmasında rəsmi Bakının praqmatik xarici siyasəti də az rol oynamır.

Prezident İlham Əliyev forumda müasir Azərbaycanın 25 illik müstəqillik tarixi olduğunu xatırladıb: "Ölkəmiz yalnız 25 ildir ki, müstəqil dövlətdir. Lakin bu, qədim dövlətdir, dərin tarixi və mədəni köklərə malikdir. Bizim üçün multikulturalizm dövlət siyasətidir. Biz bu vacib məsələlərin müzakirə edilməsi üçün müxtəlif tədbirlər təşkil edirik. Biz hər iki ildən bir Azərbaycanda Mədəniyyətlərarası Dialoq Forumunu təşkil edirik. Mütəmadi olaraq biz Bakı Beynəlxalq Humanitar Forumuna evsahibliyi edirik. Burada da əsas məqsəd müxtəlif dinlərin nümayəndələrinin bir araya gətirilməsindən, aramızda daha mühüm qarşılıqlı anlaşmanın yaradılmasından ibarətdir".

Dövlət başçısı qeyd edib ki, 2008-ci ildə Bakı prosesinin yaradılması təşəbbüsü irəli sürülüb: "2008-ci ildə biz "Bakı prosesi"nin təşəbbüskarı olduq ki, bu da mədəniyyətlərarası dialoq üçün geniş bir platformaya çevrildi. Azərbaycan eyni zamanda həm İslam Əməkdaşlıq Təşkilatına, həm də Avropa Şurasına üzv olan yalnız bir neçə dövlətdən biridir. Beləliklə, 2008-ci ildə Avropa Şurasına üzv dövlətlərin mədəniyyət nazirlərinin Bakıda təşkil edilmiş toplantısına biz İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərini dəvət etdik. Bu iki təşkilatı təmsil edən 100-dən artıq nazir ilk dəfə Bakıda bir araya gəldi".

### Tolerantlığa və qarşılıqlı anlaşmaya Azərbaycandan yaxşı nümunə tapmaq mümkün deyil

Azərbaycan Prezidenti İlham Əliyev həmişə azsaylı xalqlara, milli-dini azlıqların nümayəndələrinə həssaslıqla yanaşır, onların problemlərinin həlli üçün bütün lazımi tədbirləri həyata keçirir. Dövlət başçısı respublikamızda bütün milli və dini azlıqların birgə yaşayışı üçün kifayət qədər tolerant mühitin olduğunu məmnunluqla bildirir. Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olması artıq faktdır və bu bizim güc mənbəyimizdir. Hər bir cəmiyyətin gücü onun dini və milli müxtəlifliyindədir. Tolerantlıq hər bir ölkənin demokratik səviyyəsini müəyyən edən başlıca amillərdən biridir. Azərbaycanda tolerantlıq - irqi, milli, dini və bəşəri müstəviləri əhatə etmək baxımından yekcinsliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal gerçəkliyinin tələblərinə cavab verir. Ən əsası, tolerantlıq bu gün Azərbaycan xalqı üçün demokratik dəyərə çevrilib.

Azərbaycanda milli və dini dözümlülüyün, tolerantlığın yüksək səviyyədə olduğunu ölkəmizdə səfərdə olan yüksək səviyyəli qonaqlar da açıq şəkildə bəyan ediblər. BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Nasir Əbdüləziz Əl-Nasir VII Qlobal Forumun çox həssas və əhəmiyyətli bir dönəmdə keçirildiyini qeyd edib: "Biz müxtəlif millətlər, icmalar və cəmiyyətlər arasında dialoq və tolerantlıq, eləcə də bir-birinə hörmət təşviq etməyə çalışırıq. Mən bilirəm ki, mədəniyyətlərarası və dinlərarası sahələrdə Azərbaycan fəal rol oynayır və bu forumun Bakıda keçirilməsindən çox şadam".

Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Bakıda olmaqdan məmnunluğunu vurğulayaraq tolerantlığa və qarşılıqlı anlaşmaya Azərbaycandan yaxşı nümunə tapmağın mümkün olmadığını, burada məscidlərin, sinaqoqların, kilsələrin yanaşı fəaliyyət göstərdiyini qeyd edib. Azərbaycan ərazisinin 20 faizinin işğal altında olmasına baxmayaraq, ölkəmizin dünyada multikulturalizm və tolerantlığa mühüm töhfə verdiyini diqqətə çatdırıb. O, Azərbaycan torpaqlarının tezliklə işğaldan azad ediləcəyinə də əminliyini bildirərək Bakı Forumunda dünyanı narahat edən ən ciddi problemlərin həlli ilə bağlı mühüm çağırışların səsləndiriləcəyinə ümidvar olduğunu vurğulayıb.

İspaniyanın xarici işlər naziri Xose Manuel Qarsia Marqallo əsrlər boyu Bakı karvansaraylarının Roma və ya İstanbuldan başlayan Asiyanın hüdudlarına gedən Böyük "İpək yolu"nun səyahətçilərini qəbul etdiyindən söz açaraq deyib: "Bazar və küçələrdə həmin vaxt tacirlər ipək və ədviyyatlarla mübadilə etmiş, müxtəlif ölkələr barədə xəbərlərlə bölüşmüş və Şərqin, eləcə də Qərbin dahiləri barədə ətraflı məlumatlar vermişlər. İpək yolu bir növ həmin vaxtın interneti idi və Bakı isə onun bir hissəsi, ən mühüm qovşaqlarından biri idi. Bu baxımdan xoş təsadüfdür ki, Bakı Sivilizasiyalar Alyansının Forumunu qəbul edir".

Qətər Dövlətinin Baş nazirinin müavini Ahmed bin Abdullah Al Mahmud VII Qlobal Forumun Bakıda yüksək səviyyədə təşkil olunmasına görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib. O da Sivilizasiyalar Alyansının qlobal forumlarının mədəniyyətlər arasında dialoqun və əməkdaşlığın inkişaf etdirilməsi yollarının müəyyənləşdirilməsi baxımından mühüm platforma olduğunu qeyd edib.

Litva dövlətinin təmsilçisi Aleksandras Brokas Azərbaycan paytaxtını tərəqqi, inkişaf və nikbinlik nümunəsi hesab edib: "BMT-nin Sivilizasiyalar Alyansının VII Qlobal Forumunun Azərbaycanda keçirilməsi çox əhəmiyyətli bir qərardır. Forum çərçivəsində dünyanın çoxsaylı ölkələrindən nüfuzlu siyasətçilər, alimlər, ictimai-siyasi xadimlər, elm, mədəniyyət adamları bir araya gəlirlər. Forum müxtəlif ideyaların bölüşdürülməsi, təkliflərin irəli sürülməsi baxımından XXI əsrin böyük bir platformasına çevrilib".

Azərbaycan paytaxtında möhtəşəm şəkildə təşkil olunmuş VII Qlobal Forumda Bakı Bəyannaməsi də qəbul olundu. Bu forum Azərbaycanın mədəniyyətlərin qovuşduğu məkan olduğunu bir daha sübuta yetirdi. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir.

***Elnur HACALIYEV,***
***"Azərbaycan"***